# SEVMİŞƏM



Zemfira Quliyeva

Dolaşdıqca ölkələri,
Gördükcə gözəllikləri,
Etdiyim hər bir səfəri
Gözəl əfsanə bilmişəm...

Düzlük axtara-axtara,
"Çevirib" qışı bahara,
"Şəkər qatıb" yuxulara
Ömrümü nağıl etmişəm...

Bilməyərək səhvlər etdim,
Özüm özümü incitdim,
Neçə arzumu məhv etdim,
İndi özümdən küsmüşəm...

Çiçək dərdim - tikan imiş,
Söz dinlədim - yalan imiş,
Bəziləri nadan imiş,
Onları adam bilmişəm...

Qaranlıqda çıraq olub,
Yıxılana dayaq olub,
Çoxlarına mayak olub
Özüm zülmətə düşmüşəm...

Xoşbəxt edib özgələri,
Sevindirib ürəkləri,
Gizlədərək qəm-kədəri
Özümə əzab vermişəm...

Məhəbbəti alqışladım,
Satqını bağışlamadım,
Xəyanətlə barışmadım,
Çünki vəfanı sevmişəm...

Saxtalığı anlasam da,
Acı sözü bal sansam da,
Kimdənsə incik olsam da,
Mən insanları sevmişəm,
ƏSL İnsanı sevmişəm...
İNSAN olanı sevmişəm!...

17 dekabr 2016

WWW.KASPI.AZ